# YOL İQTİSADİYYAT, MƏDƏNİYYƏT, BİR SÖZLƏ, HƏYATDIR

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş sosial-iqtisadi inkişaf strategiyası müasir Azərbaycanımızı zənginləşdirmiş, gözəlləşdirmiş, yeniləşdirmişdir. Onun layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyevin uğurlu fəaliyyəti nəticəsində ötən illər ərzində yol infrastrukturunda köklü islahatlar aparılmışdır. "Yol olmasa, ölkəmizin çoxşaxəli inkişafından söhbət gedə bilməz" — deyən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin hər bir sahədə olduğu kimi yol infrastrukturunun inkişafına göstərdiyi diqqət və qayğı göz qabağındadır. Qabaqcıl aqrar rayonlardan olan Samuxda da Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında əks olunan avtomobil yolları şəbəkəsinin yenidən qurulmasına dair tapşırıqlar uğurla yerinə yetirilir.



Samux rayonunda yol təsərrüfatına xidmət göstərən 57 saylı yol istismar idarəsinin rəisi Zakir Quliyevlə qızğın iş gedən sahədə görüşdük. O qeyd etdi ki, ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə ölkə rəhbərliyinə gəldikdən sonra həyatın bütün sahələrində olduğu kimi, nəqliyyat-yol sektorunun inkişafında da tənəzzülə son qoyuldu. Ümummilli lider bu sahənin ölkə iqtisadiyyatındakı rolunu düzgün dəyərləndirərək islahatların aparılmasını daim diqqətdə saxlayırdı. Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin əməyi nəticəsində bu sektorun inkişafı məqsədilə struktur dəyişiklikləri aparılmış, 1998-ci il avqustun 5-də Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi təsis edilmiş, nazirliyin tabeliyində "Yolnəqliyyatservis" Departamenti yaradılmışdır. Respublika və yerli əhəmiyyətli avtomobil yolları adıçəkilən departamentin balansına götürülmüş, onun tabeliyinə verilən yol istismar idarələrinin fəaliyyəti genişləndirilmişdir.

57 saylı Samux Yol İstismar MMC 218 km avtomobil yoluna xidmət edir ki, bundan 8 km-i respublika əhəmiyyətli yollar, qalan 210 km isə yerli əhəmiyyətli avtomobil yollarıdır. 2015-ci ilin I rübündə 57 saylı Samux Yol İstismari MMC tərəfindən xidmət etdiyi avtomobil yollarında bir sıra saxlanma və cari təmir işləri yerinə yetirilmişdir. Gəncə-Samux, Nəbiağalı-Lək, Samux-AzETPİ - Əlibayramlı, Kolayır - Yenikənd - Poylu, Gəncə - Qarayeri və digər istiqamətlərdə yolların torpaq mailllikləri, çiyin hissələri kol-kosdan təmizlənmiş, avtoqreyderlə plana salınmış, küveytlər təmizlənmişdir. Həmin yolların çiyin hissələrində çınqıl materialı ilə təmir-bərpa işləri görülmüşdür. Su ötürücü boruların giriş-çıxışları təmizlənmişdir. Gəncə-Samux, Samux-Çobanabadlı - AzETPİ, Kolayır-Yenikənd istiqamətində 1870 kvadratmetr sahədə asfalt-beton qarışığı ilə təmir işləri aparılaraq 321,3 ton miqdarında 16,1 min manat dəyərində iş həcmi yerinə yetirilmişdir. Gəncə - Samux avtomobil yolunda 2 ədəd yol nişanı quraşdırılmışdır.

2015-ci ilin aprel ayında Gəncə-Samux, Nəbiağalı-Lək, Samux-AzETPİ - Əlibayramlı, Gəncə - Qarayeri və digər istiqamətlərdə yollar təmizlənmişdir. Həmin yolların çiyin hissələrində çınqıl materialı ilə təmir-bərpa işləri görülmüşdür. Gəncə - Samux, Samux - AzETPİ - Şirvan - Nəbiağalı-Lək, Gəncə - Qarayeri, avtomobil yollarında 740 kvadrarmetr sahədə asfalt-beton qarışığı ilə təmir işləri aparılaraq 88,8 ton miqdarında 4,4 min manat dəyərində iş həcmi yerinə yetirilmişdir. 2015-ci ilin may ayında Gəncə-Samux, Nəbiağalı-Lək, Kolayır - Yenikənd - Poylu, Gəncə - Qarayeri və digər istiqamətlərdə yolların torpaq maillikləri, çiyin hissələri kol-kosdan təmizlənmiş, avtoqreyderlə plana salınmış, küveytlər təmizlənmişdir. Su ötürücü boruların giriş-çıxışları təmizlənmişdir. Eyni zamanda Qırımızı Samux, Kolayır - Yenikənd - Poylu avtomobil yolunda 1160 kvadratmetr sahədə





çınqıl materialı ilə təmir işləri görülmüş, Qovlarsarı - Qaraarx avtomobil yolunda 3000 kvadratmetr sahədə 432 ton miqdarında asfalt-beton qarışığı ilə 21,6 min manat dəyərində əsaslı təmir işləri aparılmışdır.

Hazırda idarənin xidmət etdiyi avtomobil yollarında cari təmir işləri davam etdirilir.

Bu işlərin görülməsində müasir texnikanın əvəzsiz olduğunu vurğulayan idarə rəhbəri, balansda olan müasir texnikanın daha da səmərəliliyi barədə ətraflı izahat verdi. İdarənin balansında olan 2 avtoqreyder, 1 buldozer, 1 yükləyici ekskvator, 1 ekskavator, 4 özüboşaldan maşın yol təsərrüfatının peşəkar yol çəkənləri tərəfindən həmişə saz vəziyyətdə saxlanılır ki, indi abadlıq-quruculuq işlərində fasiləsizlik və keyfiyyətli işə stimul verilir.

Həyatını yol quruculuğuna sərf etmiş idarə rəhbəri Zakir müəllim əminliklə bildirdi ki, Samux yol təsərrüfat işçiləri güclü dövlət naminə bundan sonra da var qüvvələri ilə çalışacaq, çiçəklənən, qüdrətli Azərbaycan dövlətinə öz layiqli töhfələrini verəcəklər.

**Zabit XƏLİLOV,**
**"Respublika".**